Ulu öndərin uğurlu neft və qaz strategiyası Prezidentimiz İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində inamla davam etdirilir

1991-ci ilin sonunda Sovet İttifaqının süqutundan sonra Azərbaycan müstəqillik əldə etdi. Lakin o vaxt respublikada qeyri-sabitlik hökm sürürdü. Maliyyə və texniki təchizat məsələləri həll edilmirdi. Neft və qaz sənayesi ağır böhran içində idi. Buna görə də hələ 1979-cu ildə kəşf olunmuş "Günəşli" yatağının dərinsulu hissəsində, 1985-ci ildə kəşf olunmuş "Çıraq" və 1987-ci ildə kəşf olunmuş "Azəri" yataqlarında işləmək olardı. Yalnız "Günəşli" yatağının suyun dərinliyi 200 metrə qədər olan hissəsinin işlənilməsi mümkün idi. Belə vəziyyətdə Azərbaycanda ikinci dəfə rəhbərliyə gələn Heydər Əliyev respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı.

O vaxt "Azəri", "Çıraq", "Günəşli" (dərinsulu hissə) yataqları ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi: ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək! Xarici neft şirkətlərinin ölkəmizə sərmayə qoymasına qarşı çıxan qüvvələr mövcud idi. Bu qüvvələr həm respublikanın özündə, həm də xaricdə fəaliyyət göstərirdilər. Buna görə də Azərbaycan Prezidenti neftçi mütəxəssisləri ətrafına toplayıb, onlarla məsləhətləşdi. Prezidentin və neftçilərin fikirləri üst-üstə düşdü. Xarici neft şirkətlərini ölkəmizə dəvət etmək qərara alındı. Beləliklə də Azərbaycanın ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasına start verildi. Xarici şirkətlərlə danışıqlara başlandı.

Qərb ölkələrinin neft şirkətləri ilə danışıqlar 1994-cü ilin martında Bakıda başladı, sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi isə Amerikanın Hyuston şəhərində keçirildi. Hyustonda 1994-cü il iyulun 21-dən sentyabrın 4-dək 45 gün ərzində aparılan danışıqlarda kəskin dramatik məqamlar az olmadı. Heydər Əliyevin Azərbaycan nümayəndə heyəti qarşısında qoyduğu vəzifənin təmin olunması heç də asan məsələ deyildi. Danışıqlar ağır gedirdi. Tərəflərin hər biri öz mövqeyini, öz mənafeyini qoruyurdu. Bəzən iş o yerə çatırdı ki, ya qarşı tərəf, ya da biz danışıqları tamamilə dayandırmaq istəyirdik. Bir dəfə qarşı tərəf şərt qoydu ki, Azərbaycan Rusiya ilə danışıb, Xəzər dənizinin hüquqi statusunu həll etməsə, danışıqlar davam etdirilməyəcək. Təsəvvür edirsinizmi, bu nə demək idi? Məlum olduğu kimi, Rusiya ilə bu məsələ Prezident Heydər Əliyevin səyi nəticəsində yalnız 2002-ci ildə həll edildi. Deməli, 1994-cü ildə Amerikanın Hyuston şəhərində danışıqlar dayandırılsaydı, biz yeddisəkkiz il gözləməli olacaqdıq. Nümayəndə heyətimizin üzvü, o vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyev qarşımıza qoyulmuş şərt barədə ulu öndərimizə məlumat verdi, onun göstərişi ilə Vaşinqtona uçdu, orada çox faydalı görüşlər keçirib, məsələni yoluna qoydu.

Nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş cənab İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi.

Nəhayət, 1994-cü il sentyabrın 20-də "Azəri-Çıraq-Günəşli" (dərinsulu hissə) yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə - BP, Statoyl, Amoko, TPAO, İtoci, ExxonMobil, Lukoyl, Delta, Remko, Macdermod, Hess şirkətləri ilə "Məhsulun Pay Bölgüsü" sazişi - "Əsrin müqaviləsi" imzalandı.

"Əsrin müqaviləsi"nin Azərbaycan üçün çox böyük əhəmiyyəti oldu. Mən yalnız iki əsas məsələni qeyd etmək istəyirəm. **Siyasi cəhətdən müqavilənin əhəmiyyəti** ondadır ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha əmin oldular ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 35 saziş bağlandı.

Müqavilənin **iqtisadi əhəmiyyəti** isə odur ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Beləliklə, neft hasilatı 5,6 dəfə artdı. Hazırda respublikada hasil edilən neftin və qazın əsas hissəsi "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları hesabına əldə edilir. İşlənmənin əvvəlindən "Azəri-Çıraq-Günəşli" yataqlarından 498 milyon ton neft və 164 milyard kubmetr qaz hasil edilib. 2019-cu il dekabrın 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 291 milyon ton AÇG "mənfəət nefti" satılıb ki, bu da həmin yataqlardan hasil edilmiş bütün neftin 58,5 faizi qədərdir.

İlham Əliyevin prezidentlik dövrü bizim neft və qaz epopeyamızın parlaq səhifələridir. Son 16 ildə ulu öndər Heydər Əliyevin neft və qaz strategiyasının cənab İlham Əliyev tərəfindən həyata keçirilməsi yolunda elə böyük işlər görülüb ki, bunlar Azərbaycanı Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan, dünyanın enerji xəritəsini dəyişən bir dövlətə çevirib. Bununla əlaqədar olaraq, mən neft və qaz sənayemizdə son vaxtlarda baş vermiş bəzi mühüm hadisələri xatırlatmaq istəyirəm. Bu hadisələr ölkəmiz üçün deyil, bütün Avropa üçün böyük əhəmiyyət kəsb edir.

2017-ci il sentyabrın 14-də Bakının Heydər Əliyev Mərkəzində "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş müqavilənin SOCAR və BP şirkətinin operatorluq etdiyi Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən imzalanması mərasimi oldu. Prezident İlham Əliyev mərasimdəki nitqində "Əsrin müqaviləsi" çərçivəsində görülmüş işləri yüksək qiymətləndirdi, yeni müqavilənin şərtləri barəsində danışdı. Bu müqavilədə Azərbaycan üçün olduqca sərfəli şərtlər müəyyən edilmişdir. Məsələn, mənfəət karbohidrogenlərinin bölgüsü bu günədək mövcud olan nisbətdə qalır, yəni Azərbaycana 75 faiz, podratçı tərəflərə 25 faiz. Bu bölgü 2050-ci ilədək dəyişməyəcək. Podratçı qismində çıxış edən Azərbaycan AÇG şirkətinin mövcud layihə üzrə payı 11,6 faizdən 25 faizə, yəni 2 dəfədən də çox artırılır. Müqavilə çərçivəsində tərəfdaş şirkətlər Azərbaycan hökumətinə 3,6 milyard dollar həcmində bonus ödəyəcəklər. Yataqlardan hasil edilən səmt qazı əvvəlki kimi bütünlüklə Azərbaycana qalacaq. 2050-ci ilədək AÇG-dən daha 500 milyon tona qədər neft hasil ediləcək.

2017-ci il noyabrın 8-də Azərbaycanda 2 milyardıncı ton neft hasil edildi. Elə həmin gün Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən təntənəli mərasimdəki respublika Prezidenti İlham Əliyev iki milyardıncı ton neftin çıxarılması münasibətilə Azərbaycan neftçilərini və xalqımızı təbrik etdi. O, işlənmənin əvvəlindən ölkəmizdə iki milyard ton neftin çıxarılmasını tarixi hadisə adlandırdı.

Qeyd edim ki, milyardıncı ton neft ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə - 1971-ci il martın 28-də çıxarılmışdı. Həmin il aprelin 2-də Moskvada kommunist partiyasının 24-cü qurultayında çıxış edərkən Azərbaycan rəhbəri Heydər Əliyev respublika neftçilərinin bu nailiyyəti barədə xəbəri dünyaya yaydı. Dedi ki, Azərbaycan neftçiləri bu qocaman neft diyarının bütün tarixi ərzində yerin dərin qatlarından milyardıncı ton "qara qızıl" çıxarıblar.

Həyat belə gətirdi ki, iki milyardıncı ton Azərbaycan nefti isə Prezident İlham Əliyevin rəhbərliyi dövründə və bilavasitə onun özünün iştirakı ilə hasil edildi. Xatırlatmaq istəyirəm ki, neftin ilk milyard tonunu hasil etməkdən ötrü Azərbaycan neftçiləri bir əsrlik yol keçmişdilər. Neftin ikinci milyard tonunu çıxarmaq üçünsə bizə yarım əsrdən də az bir vaxt - cəmi 46 il lazım gəldi. Sözsüz ki, Azərbaycan Respublikasının müstəqilliyi bu işdə müstəsna rol oynayıb. Neftin 2-ci milyard tonunun 300 milyon tonu keçmiş sovet hakimiyyəti dövründə, 700 milyon tonu isə müstəqillik illərində hasil edilib ki, bunun da 460 milyon tonu "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları üzrə Konsorsiumun, 240 milyon tonu isə SOCAR-ın payına düşür.

2018-ci il mayın 29-da Bakının yaxınlığındakı Səngəçal terminalında bu gün şöhrəti dünyaya yayılmış "Cənub" Qaz Dəhlizinin rəsmi açılışı oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu münasibətlə keçirilən təntənəli mərasimdəki nitqində qeyd etdi ki, təməli dörd il bundan qabaq qoyulmuş nəhəng və çox mürəkkəb "Cənub" Qaz Dəhlizi layihəsinin uğurlu icrası ilə biz qarşımıza qoyduğumuz hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında, neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır.

2018-ci il iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanın, Ukrayna, Serbiya, Şimali Kipr respublikaları rəhbərlərinin iştirakı ilə "Cənub" Qaz Dəhlizinin 2000 kilometrlik hissəsinin - TANAP adı ilə məşhur olan Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin təntənəli açılışı oldu. Beləliklə də "Şahdəniz" qazının Cənubi Qafqaz ixrac qaz boru kəməri və TANAP vasitəsilə Türkiyəyə nəqlinə başlandı. Bu günədək Türkiyəyə TANAP-la 3.5 milyard kubmetr "Şahdəniz" qazı nəql edilib.

2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə layihə çərçivəsində inşa olunan polipropilen zavodunun açılışı olub. Artıq yüksək sıxlıqlı polietilen zavodu da istismara tam hazırdır. İlkin mərhələdə, "SOCAR Polymer" zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcək.

2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin prezidentlərinin zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalandı. Bu, son 22 ildə Xəzər barəsində danışıqların məntiqi nəticəsi oldu. 1996-cı ildən bəri Xəzərin hüquqi statusuna dair Azərbaycan, Qazaxıstan, Rusiya, İran və Türkmənistan arasında danışıqların daimi iştirakçılarından və Aktau zirvə toplantısında Azərbaycan Prezidentini müşayiət edən şəxslərdən biri kimi deyə bilərəm ki, bütün bu illər ərzində Xəzəryanı dövlətlərin müvafiq mütəxəssisləri ilə birlikdə böyük bir problemin həll edilməsi üçün çəkdiyimiz zəhmət hədər getmədi. Konvensiya Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, neft və qaz sahəsində əməkdaşlığı üçün geniş perspektivlər açır. Çünki burada ərazi suları, balıqçılıq zonası və ekoloji məsələlərlə yanaşı, dənizdə həyata keçirilən neft-qaz layihələrinin təhlükəsizliyi, sahilyanı dövlətlərin dənizin dibi ilə kabel və boru kəmərləri çəkmək hüququ da nəzərə alınıb və təsdiq edilib.

2018-ci il oktyabrın 19-da SOCAR özünün daha bir möhtəşəm layihəsini reallaşdırdı. Türkiyənin İzmir vilayətindəki Əliağa yarımadasında ildə 10 milyon ton neft emal edəcək "STAR" neft emalı zavodunun açılışı oldu. Azərbaycanın 6,3 milyard dollarlıq sərmayəsi ilə ərsəyə gəlmiş bu zavod Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir. "STAR" zavoduna tankerlərlə ilk neft 2018-ci ilin iyul-avqust aylarında göndərilib və orada test məqsədilə emal işlərinə başlanmışdır. İlin sonunadək emalın həcmi 8 milyon tona qədər olacaqdır. Bu müəssisənin inşasında əsas məqsədlərdən biri Türkiyədəki "Petkim" kimya kompleksini müvafiq neft məhsulları, o cümlədən nafta ilə təmin etməkdir. ümumiyyətlə, əlamətdar hadisələr çox olub. Təbii ki, ilk növbədə "Cənub" Qaz Dəhlizinin işə buraxılmasını və "Şahdəniz" qazının Türkiyəyə nəql edilməsinə başlamağımızı qeyd edə bilərik.

2019-cu ilin 11 ay ərzində respublika üzrə 34,3 milyon ton neft, 32,2 milyard kubmetr qaz hasil edilib. 11 ayda SOCAR-da neft hasilatı 7 milyon ton, qaz hasilatı isə 6.2 milyard kubmetr olub. Sözsüz ki, Azərbaycan neftçiləri yeni ili ürəkaçan göstəricilərlə qarşılayacaqlar.

Bu il yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR karbamid" zavodu fevralın 18-də isə yüksək sıxlıqlı polietilen zavodu istismara verildi. Azərbaycan Prezidenti İlham Əliyev bu müəssisələrin açılışında iştirak etdi, onların kollektivləri ilə görüşdü və yeni zavodların işə düşməsini respublikada qeyri-neft sektorunun inkişafında mühüm hadisələr adlandırdı.

2019-cu il sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Əsrin müqaviləsi"nin 25 illiyi Heydər Əliyev Mərkəzində təntənəli surətdə qeyd edildi. Tədbirdə cənab İlham Əliyev "Əsrin müqaviləsi"nin tarixi, iqtisadi-siyasi əhəmiyyəti barədə məruzə ilə çıxış etdi və SOCAR ilə xarici şirkətlərin birgə əhəmiyyətini vurğuladı.

Mərasimdə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti, Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarının rəsmiləri və mən çıxış etdim. Çıxışımda mən "Əsrin müqaviləsi"nin imzalandığı günə qədər razılaşmanın necə çətinliklə başa gəlməsindən, cənab İlham Əliyevin bu işdə əvəzolunmaz rolundan və ölkə iqtisadiyyatının inkişafına bu müqavilənin verdiyi töhfələrdən danışdım.

2019-cu il noyabrın 6-da Neft Daşlarının 70 illiyi qeyd edildi. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva iştirakçıların diqqətinə çatdırdı. SOCAR-ın prezidenti Rövnəq Abdullayev, mən, Azərbaycan "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və başqaları çıxış etdik.

Tarixə dünyanın 8-ci möcüzəsi kimi düşmüş Neft Daşlarından işlənmənin əvvəlindən təxminən 176 milyon ton neft və 14 milyard kubmetr qaz hasil edilib. Hazırda yataqda illik neft hasilatı 945-950 min ton, qaz hasilatı isə 85 milyon kubmetr həcmindədir.

Tədbirin sonunda neftçilərin ölkə Prezidentinə müraciətinin mətni qəbul olundu.

2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi. Həmin mərasimdə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, SOCAR-ın prezidenti Rövnəq Abdullayev və digər rəsmi şəxslər iştirak və çıxış etdilər.

Cənab İlham Əliyev qeyd etdi ki, TANAP "Cənub qaz dəhlizi"nin bir hissəsidir. "Cənub qaz dəhlizi" nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü - "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası 90 faizi keçib. TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi" vaxtında istismar ediləcəkdir. Bu nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin qələbəsidir, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Hazırda "Cənub qaz dəhlizi" özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz TANAP layihəsinin əhəmiyyətindən danışdılar. İlkin mərhələdə "Cənub" Qaz Dəhlizi ilə ixrac ediləcək 16 milyard kubmetr "Şahdəniz" qazının 6 milyard kubmetri Türkiyə Respublikasına, 10 milyard kubmetri isə Avropa ölkələrinə ötürüləcəkdir.

Bütün bu hadisələr möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində baş verib. Dünyanı təəccübləndirən qlobal layihələr onun müdrik siyasəti sayəsində reallaşır.

Qeyd etmək istəyirəm ki, ulu öndər Heydər Əliyevin ölkəmizi böyük inkişaf yoluna çıxarmış neft və qaz strategiyası bu gün hörmətli Prezidentimiz İlham Əliyevin güclü iradəsi və müdrikliyi sayəsində yaşayır, iqtisadi və siyasi müstəqilliyimizin möhkəmlənməsində aparıcı rolunu uğurla oynayır. Ümummilli liderimizin vaxtilə böyük uzaqgörənliklə işləyib hazırladığı və cənab İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi bu strategiya ölkəmizə hələ çox nailiyyətlər qazandıracaqdır.

Xoşbəxt YUSİFZADƏ,
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti,
Azərbaycan Milli Elmlər Akademiyasının akademiki.